# Şövkət Ələkbərova yad edildi

## Ailə üzvləri və tələbələri müğənninin məzarını ziyarət etdilər



**Azərbaycanın görkəmli sənətkarı Şövkət Ələkbərovanın ad günü ilə əlaqədar onun Fəxri Xiyabandakı məzarı ziyarət olunub. Şövkət Ələkbərovanın gəlini, Tofiq Quliyev adına 12 saylı Musiqi Məktəbinin direktoru Gülnarə Səfərova APA-ya bildirib ki, hər il olduğu kimi, bu il də sənətkarı doğum günündə yad ediblər: "Çox şadam ki, Azərbaycan xalqı Şövkət xanımın xatirəsini daim ürəyində saxlayır. Öz tərəfimizdən ailə üzvü kimi borcumuzu yerinə yetiririk. Onun doğum günü bizim hər birimiz üçün müqəddəs gündür".**

G.Səfərova bu gün (dünən -red.) rəhbərlik etdiyi musiqi məktəbində Şövkət Ələkbərovanın ifasında səslənən musiqilərin ifa olunduğunu və məktəbdə bununla bağlı xüsusi konsert proqramı təşkil edildiyini söyləyib: "Bilirsiniz ki, Tofiq Quliyev Şövkət xanımın çox yaxın dostu olub. Onlar birgə çox mahnı hazırlayıblar və bu gündə onların birgə işləri səsləndi".

Azərbaycanın xalq artisti Flora Kərimova Şövkət Ələkbərovanın sənətindən danışıb: "O insan xoşbəxtdir ki, Şövkət xanımı canlı görüb, canlı səsini eşidib. Azərbaycanın qəlbinə, tarixinə yazılan adlar var. Onlardan biri də bütün xalq tərəfindən qəbul olunan, sayılan-sevilən, tarixə düşən Şövkət Ələkbərovadır. İnanmaq istəyirəm ki, nəvə-nəticələrimiz bizə miras qalan, çətinliklə də olsa, qoruduğumuz sənətimizi yaşadacaq. Çünki sənət yaşadıqca Azərbaycan da yaşayır".

Şövkət Ələkbərovanın tələbəsi, xalq artisti Aygün Bayramova da Şövkət xanımı heç vaxt unutmadığını vurğulayıb: "Şövkət xanım mənim xatirələrimdə yaşayır. Hər ilin bu günü Fəxri Xiyabana gedib, məzarını ziyarət edirəm. Onun mahnıları, onun nəğmələri hər birimizin qəlbində daimi iz salıb. Fəxr edirəm ki, Şövkət xanımın tələbəsi olmuşam və ondan dərs almışam".